Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**



Sabir Rüstəmxanlının 70-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait

# Ömür kitabına poeziya yazılan şair- Sabir Rüstəmxanlı

**Bakı – 2016**

**Redaktor və buraxılışa məsul** **Şəhla Qəmbərova**

**Tərtibçi:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**"Ömür kitabına poeziya yazılan şair- Sabir Rüstəmxanlı"**
Sabir Rüstəmxanlının 70-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait .

F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 31s.

## Tərtibçidən

İnsan dünyaya göz açdığı gündən onun "Ömür kitabı" yazılır. Bəlkə elə alın yazısı, tale yazısı dediyimiz müqəddəslikdir ömür kitabı. Elə bir yazı ki, doğrudan da pozulmazdır, tale qismətidir. Burada sevgi, sevinc payımız da var, kədər, qəm payımız da... Həsrətli ürəyin nəğməsi nisgilli olar. Çünki əzab məngənəsi insanı öz qəlbində bişirir, möhkəmləndirir. Həyatın amansız sınaqları insanın şüurunu itiləşdirir. Paslı kilidlərdən, qanlı qandallardan keçən həqiqət döyüşkən ruhunu yaşadır. Yurd yollarınının bu günə bağlı qapılarını açmaq, ürək sirlərini can, qan qardaşlarına daşımaq istəyir. Beləcə yaranır *ömür kitabı...* Bu kitab zamana, əsrə, bu günə sabaha söylənilən Vətən nəğməsidir. Qəhrəmanlıq nəğməsidir. Hər nəğmənin bir müəllifi, hər müəllifin öz dünya görüşü və dünyaya baxışı var. Bu yazı vətəndaş bir şairin sizinlə bölmək istədiyi, sizinlə dərdləşmək istədiyi bir mübariz Azərbaycan oğlunun düşüncələridir. Bu düşüncələr sonu bitməyən bir nəğmədir. Elə bir nəğmə ki, onun not vərəqləri zaman-zaman açılacaq, dillər əzbəri olacaq. Bu Dədə Qorqud, Hörmüz övladı Babək, Cavanşir, Nəsimi ruhlu vətən övladı Sabir Rüstəmxanlıdır. Bu il Sabir Rüstəmxanlının 70 yaşı tamam olur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə **"Qəlbi Vətən olan şair"** adlanır və S. Rüstəmxanlının həyat və yaradıcılığından bəhs edir. II hissə isə S. Rüstəmxanlının yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

Kainat boydadır hər qum dənəsi,
Suyun hər damlası okean kimi.
Tarix ölçüsündə bir andır ömrüm,
Tarixlər ömrümdən keçdi an kimi!..

## Qəlbi Vətən olan şair

Sabir Rüstəmxanlı 1946-cı il may ayının 20-də Yardımlının Hamarkənd kəndində anadan olub. 1963-cü ildə Yardımlı qəsəbə onillik məktəbini bitirib. S. Rüstəmxanlı  Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1968-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə tələbəlik illərində başlamış,  1967-ci ildə Azərbaycan  Yazıçılar İttifaqının orqanı olan "Ədəbiyyat və incəsənət" qəzetində işə qəbul edilmişdir. 1974-1975-ci illərdə ordu sıralarında xidmət etmişdir. Bu sırada elmi işlə də məşğul olmuş, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına ədəbiyyat İnstitunun aspiranturasını bitirmişdir. S.Rüstəmxanlı 1976-cı ildə "Molla Nəsrəddin" və "folklor" mövzusunda  dissertasiya müdafiə edərək Filologiya elmləri namizədi dərəcəsinə yiyələnmişdi. Erkən yaşlarından məşğul olduğu ədəbi fəaliyyət 1967-ci ildən onun əsas peşəsinə çevrilmişdir. 1967-1968-ci illərdən "Ədəbiyyat və incəsənət" qəzetində xüsusi müxbir və şöbə müdiri, 1976-1989-cu illər arasında isə "Yazıçı"nəşriyyatının baş redaktoru olmuş, yüzlərlə elmi, ədəbi tənqidi, publisistik yazı çap etmişdir. İlk kitabı 1970-ci ildə nəşr  edilmişdir. O vaxtdan bəri Azərbaycanda, Türkiyədə, Rusiyada, İsveçdə 20-dən artıq şeir, nəsr, publisistika kitabları nəşr edilmişdir. Kitabları Azərbaycanın ədəbi ödüllərinə layiq görülmüş, onun adını bütün türk dünyasında və keçmiş Sovetlər Birliyində tanıtmışdır. "Ömür kitabı" adlı əsəri Azərbaycanda xalqın milli və yurdsevərlik  duyğularının oyanmasında ciddi rol oynamış, 1988-ci il milli azadlıq hərəkatının mənəvi təməllərindən biri olmuşdur. "Tanışmaq istəmək", "Xəbər gözləyirəm", "Gəncə qapısı", "Sağ ol, ana dilim!", "Qan yaddaşı", "Zaman məndən keçir" və s. kimi şeir kitablarının,  "Bütövlük", "Didərginlər", "Cavad xan", "Orxonla

görüş” poemalarının, “Bu sənin xalqındır” publisistik yazılarından ibarət əsərin, “Atamın ruhu”, “Xətai yurdu”, “Göy tanrı”, “Ölüm zirvəsi (Cavad xan)”, “Difai fədailəri”, “Sunami” romanlarının müəllifidir. Əsərləri bir çox dünya xalqlarının dillərinə tərcümə olunub. 2005-ci ildə Xalq şairi fəxri adına layiq görülmüşdür. S. Rüstəmxanlı Azərbaycanın və türk dünyasının görkəmli fikir adamı, naşiri, içtimai xadimi, millət vəkili, görkəmli ədəbiyyatşünas-alim, dramaturk, tərcüməçi və xalq şairidir. S.Rüstəmxanlı son qırx ildə Azərbaycanın ədəbi-mədəni, içtimai-siyasi həyatında dərin və silinməz izlər buraxmış, sevilən tanınan ədəbi şəxsiyyətlərindən biridir. Onun hər şairə qismət olmayan belə bir ümumxalq məhəbbəti qazanmasının əsas səbəbi ədəbi yaradıcılığındakı yüksək vətənpərvərlik və mübarizə eşqiylə yanaşı, həm də içtimai-siyasi fəaliyyəti-1988-ci ildən başlanan milli azadlıq hərəkatının əsas liderlərindən biri olması ilə bağlıdır. O, Azərbaycan Dövlət Müsstəqilliyinin bərpası haqqında Konstitusiya Aktının təşəbbüskarlarından və onu Parlamentdə qəbul etdirən az saylı millət vəkillərindən biridir. S. Rüstəmxanlı 1989-cu ildə Azərbaycanda ilk müstəqil və demokratik mətbuat nümunəsi olan “Azərbaycan” qəzetini təsis etmiş və iki il qəzetin baş redaktoru olmuşdur. Dünya Azərbaycanlılarının hüquqlarını qorumaq sahəsindəki fəaliyyəti, sülh, ədalət, insan haqları uğrunda yorulmaz mübarizəsi onu beynəlxalq aləmdə də yaxşı tanıdır.

Görkəmli şairimiz Sabir Rüstəmxanlının anadan olmasının 70 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi keçirilə bilər. Sərgiyə müxtəlif

başlıqlarlar verilə bilər. “Ədəbiyyatsız yaşamayan şair-Sabir Rüstəmxanlı”, “Ömür kitabına poeziya yazılan şair-Sabir Rüstəmxanlı”, “Tarixin “Qan yaddaşı” na həkk olan şair”, “Yolu xalq yolu olan şair-Sabir Rüstəmxanlı”, “Sözü silah, sözü sevgi olan şair”, “Dünənlə sabahın şairi”, “İşıqlı sabahlara qovuşana qədər...”, ““Torpağım azadlıq doğacaq” deyən şair”, “Poeziyamızda Sabir izi”, “Sabirin 70-illik ömür kitabı”, “Qəlbi Vətən olan şair”, “Aydın sabahlara işıq yolçusu, nur yolçusu şair”, “Şair olan qəm də yeyir”, “Bir şairin ömür yolu”, “Sabir düşüncəsindən süzülən poeziya”, “Əbədi sevda”, “Zaman məndən keçir”, “Bütövlük həsrəti çəkən şair”, “Sabir qələminin qızıl yaddaşı”, “İçimdəki dərd ağacı”, “Dünənlə sabahın şairi”, “Sinəsində eli boyda dağ yükü daşıyan şair”, “Sabir xalqın elçisidir” və s. verilir. Şairin müxtəlif illərdə çəkilmiş foto stendi, bundan başqa S.Rüstəmxanlının kitabları sərgidə öz yerini alır. Şairin müxtəlif dövrlərdə öz əsərləri ilə yanaşı müxtəlif ədiblərin şair haqqında yazdığı materiallar da sərgidə nümayiş olunur. Görkəmli insanların şair haqqında söylədikləri sitatlar və şeir parçaları da sərgidə verilir.























**Görkəmli şəxsiyyətlərin şair haqqında söylədikləri:**

1.S.Rüstəmxanlının böyük milli şairimiz olmaq imkanı var. Çox güman ki, o, bu imkanı əldən verməyəcək.

**Xalq şairi Xəlil Rza Ulu Türk**

2.S.Rüstəmxanlı daha çox ictimai- mövzulara meyl göstərən və bu mövzuları özəlləşdirib əsasən bədii publisistika ilə birbaşa oxucunun özü ilə danışmağa çalışan, məhəbbətinin gülləsi ilə nifrətini hədəfə alan çox aydın bir şairdir.

**Xalq şairi Bəxtiyar Vahabzadə**

3.S.Rüstəmxanlı Azərbaycanın milli şairi olmaqla yanaşı həm də görkəmli ədəbiyyatşünas-alim, nasir, dramaturq və tərcüməçidir.

**Yazıçı Mustafa Çəmənli**

4.S.Rüstəmxanlı əqidə şairidir. Bu mənada ustadı Nəsiminin köynəyindən çıxıbdır.

5.Tariximizin danılmaz həqiqətlərini biz məhz dərslik qədər əhəmiyyətli olan bu kitabdan, "Ömür kitabı" dan öyrəndik, bəhrələndik.

**Yazıçı Əmir Mustafayev**

6.S.Rüstəmxanlı şeirlərində bədiiliyin gücü mövzunun özünü obraza çevirir.

**Filologiya elmləri namizədi Kamran Əliyev**

7. Ömür" kitabı Sabirin doğma xalqına yeni ərmağanıdır.

**Qəzənfər Talıbov**

S. Rüstəmxanlının yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, ***"Ruhumuz sərhədsiz olduğu üçün"***adlı şeir müsabiqəsidir. Kitabxanaçı ilk öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq S.Rüstəmxanlının həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. İlk olaraq birinci işrirakçi "Ruhumuz sərhədsiz olduğu üçün"adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.

Bu vətən deyilən dünyam sirlidi,
Bir paytaxtı sevinc, bir paytaxtı qəm
Bu vətən torpağı çox qəribədi,
Hələ sərhəddini tapa bilmirəm. ..

*İkinci iştirakçı "Vətən" adlı şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Bir əlçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu.
Yandıqca odlanan ocaqdı,
Daddıqca dadlanan arzudu.
Bir dərə bahar leysandı,
21 Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeiridi,
Dağları dumanda itən-
Vətən... Vətən! ...

*Üçüncü iştirakçı "Sağ ol, ana dilim" adlı şeiri söyləməyə başlayır.*

Sağ ol ana dilim, ana öyüdüm,
Füzuli eşqindən divanə dilim!
Ürəyim başına nəfəs dərmədən
Fırlanıb kül olan pərvanə dilim...

*Dördüncü iştirakçı "Tanımaq istəsən" adlı şeiri demək üçün səhnəyə dəvət olunur.*

Gəl tutub əl-ələ qaçaq bu gündən
Qayıdaq öz uşaq keçmişimizə.
Utancaq, mehriban, dəli, qüssəli,
Yolları dolaşıq keçmişimizə.

Tədbirin sonunda münsiflər heyəti qalib olan şagirdləri mükafatlandırır. Qaliblərə və digər iştirakçılara şairin müxtəlif adda şeir kitabları paylanır.

Kitabxanada keçirilən tədbirlərdən olan *"Kitab müzakirəsi"* də oxucular tərəfindən rəğbətlə qarşılanır. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Sabir Rüstəmxanlının "Seçilmiş əsərləri" adlı kitab müzakirəsinə başlayır. Kitabxanaçı ilk öncə qonaqlara və ümumilikdə S.Rüstəmxanlı vurğunlarına şairin həyat və yaradıcılığından söhbət açır. Sonra onun bir neçə və eləcə də adı çəkilən bu kitabı haqqında məlumat verir.

*Kitabxanaçı:* Əsl şair addımından, bircə baxışından da aydın tanınır. Ədəbiyyata "Tanımaq istəsən" (Gənclik,1970), "Sevgim, sevincim" (Gənclik,1974), "Xəbər gözləyirəm" (Gənclik,1979), kitabçaları ilə gəlmiş S.Rüstəmxanlının şairlik, vətəndaşlıq keyfiyyətləri daha çox "Gəncə qapısı" (Yazıçı,1981), "Sağ ol, ana dilim" (Gənclik, 1983), "Qan yaddaşı" (Yazıçı, 1986) şeir toplularında, Azərbaycan Yazıçılar birliyinin Natəvan klubunda 25 aprel 1986-tarixli zəngin məruzəsində, həmin çağlarda meydana çıxmış "Ömür kitabı" əsərində aşkarlanmış və öz yaradıcısını respublikanın ədəbi-elmi içtimaiyyətinə yeni söz deməyi bacaran qüdrətli qələm sahibi kimi tanıtmışdır.

Sal qayanı yarıb çıxan şəffaf bulaq Şairimiz,
Dumanlarda azanlara çıraq, mayaq Şairimiz!
Rüstəmxanlı soyadının üç min əsrin arxasından
Bu günlərə çəkə-çəkə nurlandıran Şairimiz.

**Xalq şairi B.Vahabzadə**

Qəlbi Vətən çiçəklərindən rəng,Vətən küləklərindən səs alan şairin sizlərə təqdim etdiyimiz bu kitab başdan-başa Vətən kitabı, onun keçmişi, bu günü və daha işıqlı sabahının tərənnümüdür. Doğma xalqının mənəvi gözəlliklərinə, qəhrəmanlığına, nəcibliyinə, öz məmləkətinin təbiətinə və tarixinin ən işıqlı yarpaqlarına vurulmadan, onun dostlarını və düşmənlərini tanımadan **"Ömür kitabı"** kimi əsər yaratmaq çətindir. "Ömür kitabı" böyük zəhmət və zəka abidəsidir, nağılvarı nəsrin sıradan çıxdığı, oxunmadığı dövrdə yeni nəsrin, sənədli nəsrin, vətəndaş yanğıları ilə içəridən qızınmış poetik nəsrin meydana çıxdığını xəbər verən nümunədir. Azərbaycanın xalq şairi Sabir Rüstəmxanlının "Ömür kitabı" 1985-ci ildən jurnal səhifələrində parça-parça çap edilərək oxucular arasında böyük şöhrət qazanmışdır. 1988-ci ildə qısa vaxt ərzində iki dəfə azəri, bir dəfə rus dilində yüksək tirajla nəşr edilən kitab gənclərin milli şüurunun inkişafında mühüm rol oynamışdır. **"Gəncə qapısı"** şeirlər toplusu S.Rüstəmxanlı şairliyinin yeni keyfiyyətlərlə zənginləşdiyini, sənətkar-vətəndaş mövqeyinin daha möhkəm əsaslara söykəndiyini, ötkəmlik, mərdanəlik pafosunun dərinliyini aşkarladı. İnsanı xoşbəxt edən, insan mərtəbəsinə qaldıran yalnız xalq və bəşər tərəqqisinə xidmət edən içtimai mübarizə, nəcib mübarizə amalıdır-bu motiv "Gəncə qapısı" səhifələrindən poeziyanın şah damarı kimi kəsib keçir. Hər yazılan şeir deyil. İnsanın yalnız gözəlliyə, ülviyyətə və qəhrəmanlığa məhəbbətini alovlandıran, onu içəridən coşduran, qanadlandıran əsərləri biz poeziya sayırıq. Bu baxımdan **"Sağ ol, ana dilim"** kitabını şairin yaradıcılığında daha yüksək mərhələ kimi dəyərləndirməliyik. Olduqca nikbin, fərəh saçan, Vətən tarixinin, türk dünyasının əzəmətini öz canında, qanında duyan lirik qəhrəmanın özünü, öz milli varlıgını keçmişi və sabahı ilə birlikdə dərk etməsindən doğan nikbinlikdir. Bu kitab şairin şair kimi yetkinləşdiyini xəbər verir. Bundan əlavə **"Göy tanrı"** romanında Azərbaycan və Şərq tarixində böyük rol oynamış Oğuz xanın və qədim türklərin mənşəyi və keçdiyi yollardan, eləcə də təkallahlığın mühüm mərhələsi olan Göy tanrı

inancından danışılır. Həm mövzusuna, həm də yazı tərzinə görə əsərin çağdaş ədəbiyyatımızda mühüm bir hadisə olduğuna inanırıq. Bundan başqa Azərbaycan içtimai-fikir tarixinin ən nəhəng simalarından olan Əhməd Ağaloğu 1905-1907-ci illər erməni-müsəlman davasında erməni terrorunun qarşısını almaq, erməni və ermənipərəst çar idarələrinin xəyanətkar Antiazərbaycan siyasətinə cavab vermək üçün **"Difai"** adlı bir partiya və ya müdafiə təşkilatı yaratmışdı. Bakıda-Batuma, Qarabağdan-Dağıstana geniş şöhrət qazanan təşkilatın on minlərlə üzvü var idi. "Difai"nin meydana çıxması ilə Qafqazda qüvvələr nisbəti Azərbaycanın xeyrinə dəyişildi. "Difai fədailəri" romanında o dövrün adamlarını müdafiə hərəkatına qoşan səbəblər, Azərbaycanı xilas etmək yolunda ziyalılarımızın apardığı çətin və şərəfli mübarizə öz əksini tapmışdır. Digər kitablar kimi S.Rüstəmxanlının **"Seçilmiş əsərləri"** şeir toplusu da öz oxucusunu yalnız yeni duyğular, yeni arzular, yeni fikirlər ilə deyil, həm də ən başlıcası qeyrətlə silahlandırır. Bu şeirləri oxuyarkən klassik Azərbaycan ilə fəxr edirsən, bu ülviyyətə, bu bütövlüyə qarşı tuşlanmış nə varsa, hamısını yıxmaq, dağıtmaq uğrunda çarpışmalara atılırsan. Mübarizədir bu şeirlərin məqamı! Bəli, hər cürə mübarizə yox, məhz haqqa, məntiqə, mənəvi ləyaqətə arxalanan böyük döyüşlərə çağırır bizi bu üsyankar, bu qanadlı, bu qeyrətli poeziya. Kitabın içərisində yer alan hər şeir diqqətəlayiqdir. Kitabxanaçı onlardan bir neçəsini, məsələn, "Tanımaq istəsən" şeirini təhlil etməyə başlayır. Ocaq, torpaq duyğusu qəribə duyğudu. Hər kəs öz üzünə öyrəşdiyi ata-anasına bağlandığı kimi bir parça torpağa da bağlanır. Və orda dünyanın heç bir yerində tapmadığı rahatlıq, xoşbəxtlik tapır. Yaşamaq burda nuş olur, ölmək burda asanlaşır. Dünyanın bütün əzabları, qorxuları əcdadların ruhlarına qovuşmaq adlanan və sözlə ifadə oluna bilməyən sirli sevinclə üz-üzə gələndə vahiməsini itirir; insan ölümə ayrılıqdan çox görüşə gedən kimi gedir, tapdığının itirdiyindən böyüklüyünə inanır...

Şimşəklər çinartək sançılıb yerə,
Düşmənin gözündə dirsəkdi hər dağ.
Babalar atını sürüb gedibdi,
Qayalar boylanıb qalıbdır ancaq.
Oğlu-Şah İsmayıl Xətayi adlı,
Ağ atlı oğlan var, atı qanadlı;
Bir də Suraxanı atəşgahı var,
Bir də Misri qılınc, bir də Çənlibel;
Bir də
"Heydərbaba" yazılmış bir dil.
Torpağı ot deyil, kişi göyərdən.
Vətən... vətən!

Kitabxanaçı digər şeirə, "Sağ ol, ana dilim" şeirinə keçid alır.
Ana dilim! Səni allahların, göylərdən gələn kişilərin, işıqdan doğulan adamların müqəddəs dili, alpların-ərənlərin qəhrəman dili, bayrağın işığına dünyanı toplayanların fateh dili, nəhayət ölkələr dolaşan mühacirlərin didərgin dili adlandırıblar! Əmr etmək, hökm vermək üçün yaradılmış hakimiyyət; ordu, yürüş dili deyiblər sənə! Şaman dualarında təbiətin, yerin-göyün səsisən. Qayaların üstündə qaya kimi sərt bir millətin andısan. Dədə Qorqud boylarında dağlarımızın gül-çiçək dənizi kimi min rənglisən! Nəsiminin harayında üsyansan, ildırımsan! Füzulinin pıçıltısında dünyanın ən böyük qəm yüküsən!. Mənim həsrətimdə gələcəyə ümidsən...

Yollarım sınandı yad ölkələrdə,
Neçə yad dodaqda səsləndi andım.
Sağ ol, ana dilim, məni heç yerdə
Köməksiz qoymadın, yalqız qoymadın.

Daha sonra kitabxanaçı "Sevgim, sevincim" adlı şeirə keçid alır.
Allahın gecə-gündüz işdən, torpaqdan, ilğımlı çöllərdən və uca dağlardan başqa heç yerdə səadət tapa bilməyən məzlum millətinin ruhu, işığı min illəri adlayıb gələn bir möcüzədir. Yer üzündə insan

əlinin, insan əzələsinin abidələri çoxdur: tikililər, texnika, sənət inciləri... Bəs insan ruhu? Bəs millətin ruhunun işığı? Şeir bu işığın şəklidir, söz-söz hörülmüş ruh abidəsidir... Şeir ruhu əbədiləşdirir. Buna görə də, şairin zamandan qorxusu yoxdur.

Azərbaycan yollarının ilqarı dönməz,
Bu yol ilə düzlük gedir, həqiqət gedir,
Azərbaycan yollarının sonu görünməz.
Əvəlisə nəğmə kimi qəlbimizdədir!..

S.Rüstəmxanlının "Hər kəs günəşi sevsə", "İnqilabdan dönən deyil", "İşıq ömrü", poemaları içtimai pafosla, Vətənə bağlılıq, sənətə və sənərkara rəğbət ruhunda yazılıb. Ədəbiyyatımızda, xüsusən poeziyamızda "Araz mövzusu" ayrıca dərin təhlilini gözləyən mövzudur. Həmin içtimai mövzu ilə bağlı qüdrətli sənət əsərləri yaranıb. S.Rüstəmxanlının şeirlərində Araz müxtəlif obrazlarda işlədilib: "Mən ildırım vurmuş ağac kimiyəm-bir budağım quru, birisi yaşıl...", "İlk sevgim bəlkə də dərdli Arazdı, kama yetişməmiş keçir dünyadan", "Bu vətən deyilən dünyam sirlidi, bir paytaxtı sevinc bir paytaxtı qəm", "Aramızdan sərhəd çəkən qəmin də öz Arazı var...", "Araz simi üstə addımlarımdan görüş mahnıları çalınmalıdır"... Şair ilk məhəbbətdən, ümidsiz həsrətdən, çiçək açacaq arzudan, dost taleyindən danışanda Araz sözünün müxtəlif məna çalarlarını poetikləşdirir. Burada vətəndaşlıq qeyrəti ilə emosianal şair duyğusu birləşir və söz oynatmaları, misradan-misraya fikir keçidlərini mövzunun fəlsəfi-estetik dərinliyinin açılmasına, lirizmin psixoloji qatlarına yüksəlir.

Yollar açılacaq bir gün, bilirəm!
Yollar göyərəcək cavan meynətək
Mənim ürəyimdən, arzularımdan.
Arazı min yerdən kəsib keçəcək,
Xəzəri arxayın üzüb keçəcək.
Könlümdən boy atan diləklər kimi.
Bu yurdu büsbütün bürüyəcəkdir.

Açılan yollarla bizim sevgimiz
Tumurcuq-tumurcuq yeriyəcəkdir.

Sabir Rüstəmxanlının vətənimizə sevgisi, vətənə, millətə olan məhəbbəti onun bütün misralarından, şeirlərindən, ümümiyyətlə hər kəlməsindən süzülüb ağ vərəqlərə tökülür. Onun hər bəndi, hər kəlməsi vətən qoxuyur. Sabir yaradıcılığı başdan-ayağa vətənə həsr olunur desək yanılmarıq. Vətənin ağır günləri, keşməkeşli tarixi, qanlı yaddaşı həkk olunub onun şeirlərində öz izini qoyur. S.Rüstəmxanlı yaradıcılığı bütövlükdə elə *Vətən* deməkdir. Şair vətənə, dilimizə, ümumiyyətlə sözün qüdrətinə və sözə dəyər vermişdir. Bu məqsədlə S.Rüstəmxanlının yaradıcılığında vətənpərvərlik mövzusu başlığı altında **“Vətən mənə oğul desə...”** adlı oxucularla söhbət keçirilə bilər. Bu söhbətə kitabxanaçı “Sabirin vətən sevgisi”, “Şair olan qəm də yeyir”, “Qəlbimin vətən dağı”, “Ürəyində eli boyda dağ yükü gəzdirən şair”, “Sözə düzülən vətən sevgisi”, “Vətən söyləyən dilim” və s. adlarla başlıq verə bilər. Kitabxanaçı oxucularla bu haqda söhbətə başlaması məqsədə uyğundur.

**Kitabxanaçı:** Vətən mövzusu müxtəlif formalarda-bəzən açıq, bəzən “bükülü” şəkildə S. Rüstəmxanlının şeirlərinin əsasıdır. Təbii haldır ki, hər dəfə eyni mövzuya deyim yeknəsəqliyi yarada bilər. Fikir, şair məqsədi aydın olanda, söz ürək yanğısı, saf duyğusu, humanist niyyətlə yoğrulanda isə mövzuya rəngarənglik, əlvanlıq gəlir. “Qəhrəman ana”, “qəhrəman oğul”,“Ruhumuz sərhədsiz olduğu üçün”, “Tarixi yaradanlar”, “Doğmalıq...” şeirlərində “Vətənə xidmətdir ən böyük sənət”, “Mənə yurdumun son sahilinə yetməyə bir ömür bəs eləməyir”, “Sağ olsun ulularım, işığı ərzə düşən sönməz ocaq çatıblar” deyən şairin ilk sözü Vətəndir. Bu mövzu hər dəfə yeni variasiyada səslənir və oxucu ovqatı yeni musiqi notunda köklənir. S.Rüstəmxanlının “Bu yurd mənə tanış gəlir”, “Qopuz səsi, Şaman duası” və bu səpkili digər şeirlərində Vətənin qədim, ulu keçmişi, xalqın mənəviyyatı, millət kimi formalaşmasında keçdiyi mərhələlər qürurla, yanğıyla misra qatarına düzülüb. Şairin əsərlərində doğma

xalqın taleyi tarix-tarix səhifələnir. S.Rüstəmxanlının yaradıcılğında düşmən və və onun havadarlarına olan təqid açıq-aşkar görülməkdədir. Şairin şeirlərində bəzən yağı düşmənlərimizlə bərabər sapı özümüzdən olan nadanlarımız da qınaq hədəfinə çevrilir. Onun əsərlərində tariximizi saxtalaşdıranların layiqli cavabı verilir.

Vaxt olub ki, öz gülləmiz
Gözümüzə tuşlanıb,
Öz zəmimiz əlimizlə
biçilməmiş xışlanıb,
Pisliyimiz düşmənə xoş!
Daima alqışlanıb;
Mən də elə sənin kimi
öz-özümə qəniməm,
Öz nəfsimlə talan olub
öz yatarım, xəzinəm...
...Aman, durna, dimdiyini
öz başında sınama,
Sən gücünü yurddaşında,
qardaşında sınama!..

Sovetlər birliyinin süqutu ilə yenidən Türk dünyasının cazibə mərkəzi halına gələn Azərbaycanın son ilki dövrü, müstəqilliyi, azadlıq və demokratiyası bir tarixdir. Usta şair və yazar Sabir Rüstəmxanlı bu özgürlük və demokratiya mübarizəsinin ən orta nöqtəsində yer alan şəxsiyyətlərdən biridir. Başlanğıc günündən bu günə qədər bu mübarizəyə davam edən S.Rüstəmxanlı 1988-1992-ci illərdə yaşadıqlarını, mübarizə və mücadiləsini, daxili çəkişmələri, bir sözlə o illərdə yaşananlar şair qələmində həkk olundu tariximizə.

Tarix bizə pay ayırıb: Odlar yurdu, Gözəl vətən,
Damarımda qanım coşur Azərbaycan kəlməsindən.
Dahilərin ölməz eşqi milyonların dodağında
Biz gedirik gələcəyə İstiqlalın sorağında.

S.Rüstəmxanlının əsərlərinin əsas motivi vətənpərvərlik ruhu, əzmkarlıq, ruh yüksəkliyidir. Hər bir şeirdə şeirlə milli qürur, vətənə məhəbbət və vətənə məhəbbətə çağırış açıq şəkildə görünməkdədir.

Babaların igid ruhu dirildi,
Qisas deyir türk yaddaşı-şanımız.
Ömür bizə vətən üçün verildi,
Qurban getsək halal olsun qanımız...

Və ya digər şeirə nəzər salaq.

Mənim yoluma bax, əzəldən haqlı,
Haqqı gücsüz bilib gülmək günahdı,
Gələcək cəzanı çəkməyin vaxtı,
Hesabı axırda kəsən millətəm!..

Kitabxanaçı: S.Rüstəmxanlının yaradıcılığı doğma yurdun uzaq-yaxın illərini, sevincli-ağrılı günlərini əks etdirən, insanın səhvini, nöqsanını üzünə oxuyan, hiddət və nifrətini göstərən, bütün bunları heykəlləşdirən ana dilinin qüdrəti ilə nizama salan poetik yaddaşdır. S. Rüstəmxanlının sözə olan dəyərli fikirlərini olduğu kimi sizə çatdırmaq istəyirəm. "Söz-silah, iş, sevgi və çörəkdir! Buna görə sözə borcluyam, onu qoruyuram, sevirəm və qısqanıram. Sözün yolu-xalqın yoludur. Hər ikisi ürəyimi titrədir. Hər ikisi sirli və sehirlidir. Hər ikisinin kökü, başlanğıcı tanrıdan başqa kimsəyə bəlli deyil. Ağlım kəsəndən hər gün bu yolu geriyə qayıdıram. Görürəm ki, hər sözdən xalqın uzaq keçmişinə, yaranmasına və təfəkkürünə, dünyanı qavrama tərzinə bir pəncərə açılır. Görürəm ki, tarixin hər səhifəsindən yeni-yeni sözlər cücərir, onu yaradanla birgə boy atıb yaşayır və yayılır. Sözün də öz ömrü var-doğrusu, olumu və ölümü var. Söz də xalqların yol yoldaşıdır, tər töküb ölkə qurur, vuruşur, döyüşə aparır, şənlik edir, yas saxlayır, qocalır, yorulur və itir. Tarix-zamanın unutqanlığında, yolları ot basır, söz paslanır əldən-dildən düşür... Amma sözlərin ölümü təkcə qocalıb əldən düşməklə gəlmir, lap elə cavan, işlək vaxtında dəyərini itirən, gücünü və əhəmiyyətini qeyb edən sözlər də var ki, cavan ölür, yaxud diriykən ölüyə çevrilir. Söz millətin ruhudur.

Kərpic-kərpic binalar tikilir, söz-söz ruh abidələri-əsərlər. Sözlə qurulan abidələr daha etibarlı və uzunömürlüdür. Millət sözü, söz milləti qoruyur! Millətin ruhu və ümüdi qırılanda, sözlər də qoşun kimi pərən-pərən düşür. Dili qorumaq üçün təkcə Dil Qanunu yetərli deyil. Ruhumuz və mühitimiz kimi, sözümüzün də kəsərini, gücünü, canlılığını, düzlüyünü qoruyub saxlamağı bacarmalıyıq.

Söz.

Söz ki ucuzlaşıb dəyərdən düşür,
Elə bil bir igid yəhərdən düşüb,
Belində kəmər yox, başında papaq,
Qılıncı şəkildi, taxtadı ancaq.
İlğim səadəti, yuxu bəzəyi,
Bomboş səhrasına “cənnətim” deyir.
Sürtülür əllərdə dəmir pul kimi,
Baş əyir hamıya söz də qul kimi.
Əlinə su tökür hər ədəbazın,
Nifrət əvəzinə mədhiyyə yazır.

Füzuli qovrulur öz məzarında,
Sabir də hallanır söz bazarında...

Tarixin günahı, vaxtın suçudu,
Sözün xəstəliyi yoluxucudu.
Yurdun azadlığı sözdən başlanır,
Ürəkdən başlanır, sözdən başlanır!

Sabir Rüstəmxanlının 70-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi bədii gecədir. “Qəlbi Vətən olan şair” adlı ədəbi bədii gecə bilavasitə şair Süleyman Rüstəmxanlının oz iştirakı ilə keçirilir. Bununla yanaşı Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, oxucular, məktəblilər və ümumilikdə sabirsevərlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecəyə şairin sözlərinə Faiq Sücəddinov tərəfindən bəstələnən Brilliant Dadaşovanın ifasında “Yalvarıram” adlı ritmik bir mahnı ilə start verilir. Bu gözəl ovqatdan sonra aparıcılar səhnəyə yaxınlaşır.

**I aparıcı:** Şairlik nəyimə gərəkdir?
Deyim!
Şeirdə təsəlli aparmaq üçün.
Təzə söz deməyə gümanım azdı,
Yazıram köhnəni qorumaq üçün.
Özümü qorumaq odlar içində,
Adımı qorumaq adlar içində,
Mənim bu narahat qəlbim sınmasın
Xoşbəxtlər içində yadlar içində!

Qz ana dilimə, ana sözümə
Bir təzə kəlmətək qoşula bilsəm;
Sinəmə səpilən od yağışından-
Yad sözdən, yad ruhdan yaşına bilsəm,
Demək çiçəklənən cavan budağam,
Mən söz əsgəritək yaşayacağam!

**II aparıcı:** Salam, dəyərli qonaqlar, Sabir Rüstəmxanlı sevərlər, şeirə-sözə vurğun oxucular, bu gözəl şeirli, nəğməli, tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Sabir Rüstəmxanlının 70-illik yubileyi münasibətilə buraya yığışmışıq. Onun keçdiyi yarpaq-yarpaq şeir dolu ömür yoluna işıq salmaq üçün şairin bu söz dolu, misra dolu gecəsinə toplanmışıq. Onun nəğməli sədasına. Şair əks-sədadır. O, həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verməlidir. S.Rüstəmxanlı əsil şairdir. O, ahəngini Azərbaycanın dahi şairlərinin ahəngindən götürmüş bir şairdir.

**I aparıcı:** S.Rüstəmxanlı hardasa S.Vurğun, Şəhriyar, R.Rza kimi yaxın, Ələkbər Sabir, M.Füzuli, Nəsimi kimi “uzaq” sələflərindən, B. Vahabzadə təki çağdaşlarından təsirlənib qüvvət almış, öz yaşıdlarının çoxunu tezliklə arxada qoyub ən yeni Azərbaycan türk poeziyasının ön atəş xəttinə çıxa bilmişdir. Nəfəsindəki qəhrəmanlıq yanğısının tüstüsüz alovuna baxmayaraq bu poeziya nə qədər təvazökardır, məğrur və başı ucadır. Təvazökarlıq və igidlik bu poeziyanın boyuna biçilib!

**II aparıcı:** Şeir ürəyin, beynin kardioqramıdır. Şeir yalnız ürəyin yox, həm də ömrün çövhəridir. S.Rüstəmxanlının kitablarında yalnız bircə ömrün deyil, nəsillər və əsrlər ömrünün cövhəri verilmişdir. Xoşbəxt o şairdir ki, xalqını təmsil edə bilir, bu halda onun ilham vergiləri yalnız özünün deyil, bütün ulusun, yurdun mənəvi kardioqramına çevrilir. Şeir və dastançaların çoxu əsrimizin son rübündə yazılsa da, ehtiva, qapsama dairəsi çox böyük, çox əzəmətlidir.

**I aparıcı:** Sabir Rüstəmxanlı bizim XX əsr şeirimizdə bir məktəbdir. Amma bu məktəbin özünün də məxsus olduğu daha böyük müqəddəs məktəbi var. Bu, bəxtsiz şairimiz Məhəmməd Hadi ilə başlanan

vətənçi, milli poeziya məktəbimizdir. Birinci Rus inqilabı bizə mətbuat azadlığı verdi. Bu azdlığın bitirdiyi zərif çiçəklərdən biri Azərbaycan xalqının oyanan milli şüuru idi.

**II aparıcı:** Çəkil torpağımdan, ey yağı düşmən,
Mən şeytan ümidin üzən millətəm.
Dünyanı üstümə qaldırdın yetər,
Dünyanın dərdinə dözən millətəm.

Mənin yoluma bax, əzəldən haqdı,
Haqqı gücsüz bilib gülmək günahdı,
Gələcək cəzanı çəkməyin vaxtı,
Hesabı axırda kəsən millətəm!..

**I aparıcı:** Sabir Rüstəmxanlı fikir şairidir, düşüncə şairidir. Şeirlərinin mayası, qayəsi, qələmindən süzülən misralarının əriş-arğacı fikirdən yoğrulub, fikirdən toxunub. Şair elə bir şey yazmayıb ki, dünən çəpikdə, alqışda çimən misralar bu gün xəcalət tərinə çevrilsin, müəllifinə əzab-əziyyət versin, peşmançılıq gətirsin. Sabirin poeziyasında qınanılası bircə misra belə yoxdur. Sabirin dərdi elin dərdinə tən olubdur həmişə. Şair ürəyində eli boyda, özü boyda qəm yükü gəzdiribdir, yorulmayıbdır. Bu qəm yükündən usanmadan, yorulmadan, bezmədən çiyinlərinə alıb. Elin yolunda yanıb, elin pərvanəsinə dönübdür.

**II aparıcı:** Sabir Rüstəmxanlı əqidə şairidir. O, min bir mükafatdan, min bir vəzifədən elin bir "sağ olunu" üstün tutubdur. S.Rüstəmxanlı Nəsimi davamçısıdır. Amalını da ustadından götürüb. Onun çeşməsindən su içibdir, ilhamından barınıbdır. Sözün düzünü deməyi, düşündüyünü dilinə gətirməyi bacarıbdır. Bəli, S.Rüstəmxanlı həqiqəti

deməkdən heç vaxt çəkinməyibdir. Şair Azadlıq meydanına toplaşmış yüz minlərlə adamı çalışıbdı başa salsın ki, biz müstəqil olmalıyıq, imperiyanın buxovundan qopmalıyıq, azad yaşamalıyıq. Öz bayrağımız, öz gerbimiz olmalıdır, mövcud rejimdən əl çəkməli və imtina etməliyik. S.Rüstəm aydın sabahlara işıq yolçusu, nur yolçusudur.

**I aparıcı:**

Biz işıq yolçusuyuq,
məqsəd-işıq,
Biz olan yerdə olur
zülmət- işıq.
Ruh- işıq,
Məslək –işıq,
Qeyrət- işıq,
Güc-işıq,
Qüvvət-işıq,
Cürət-işıq.
O könüldən ki, keçir,
Eşq ilə qeyrət damarı
Orda öz bayrağını
asdı işıq.
Atalardan bizə mirasdı işıq.

**B. Vahabzadə**

**II aparıcı:** Yazıçı üçün Sözün, İnsanın və Millətin azadlığından böyük arzu və xoşbəxtlik yoxdur. Bu sözləri S.Rüstəmxanlı misraları yalnız quru kağızda yox, işdə həyatda gerçəklənəsi müstəqilliyin

sorağındadır. Müstəqillik səadətinə çatmaq imkanı millətin sayından çox sanbalı ilə ölçülür.

Müstəqillik! İlk inamım, ilk həsrətim!
Müstəqillik! Xalqın məslək bayrağıdır.
Müstəqillik-hər ölkənin, məmləkətin
Zülm, əsarət orbitindən çıxmağıdır!

**I aparıcı:** Şairin yaradıcılığına nəzər salsaq, yazıların nə qədər qəlb ağrısı, ürək yanğısı ilə yazıldığına şahidi olarıq. Parçalanmış vətən, iki yerə bölünmüş, bir-birindən ayrı düşmüş xalq onun ürəyinin kədər karvanından yola çıxıb gəlir. Ümumiyyətlə, Sabir xalqın elçisidir. Sabir qələmi qılınca dönüb xalq uğrunda əbədi mübarizəyə qalxmışdır.

Qılıncam-ovxarım sözlə, inamla,
Min ilin başında yurdun səsiyəm,
Özüm bu günlərə gül ola-ola
Gələcək günlərin pərvanəsiyəm!

**II aparıcı:** S.Rüstəmxanlının sözlərinə bəstələnmiş bir çox mahnılar vardır. "Ürəyimdə eşqimizin ocaq yeri", "Halıma ağlayır qaralan buludlar", "Halımı sorma", "Gecdi daha", "Səni məndən alan dünya", "Vəfasızım mənim" və s. bir sıra sevilən mahnıları misal göstərə bilərik. Dəyərli qonaqlar, gəlin onlardan bir neçəsini dinləyək.

**I aparıcı:** Şairin Azərbaycanda iyirmi, Türkiyədə, Rusiyada, İranda, Özbəkistanda, İsveçdə isə, üst-üstə, on beşdən artıq kitabı nəşr edilmişdir. 2005-ci ildə ona Azərbaycanın Xalq şairi adı verilmişdir... Polşa Respublikasının Mədəniyyət Nazirliyi mədəniyyət sahəsindəki xidmətlərinə görə onu "Sənətkara şöhrət" medalı ilə təltif etmişdir...

**II aparıcı:** Dünyada ilk qədəmlərimizi atarkən doğulduğumuz torpağın adı bizim hələ sadə, təfəkkürümüzdə Vətən mənasındadır. Sonra bu ad məktəb dəftərimizin üstünə yazılır, məktublarımızın üstündə bir ünvan kimi dünyanı dolaşır. Daha sonralar ömür pasportumuza yazılaraq bütün həyat boyunca bizimlə birgə yaşayır. S.Rüstəmxanlı da ədəbiyyatımıza, poeziyamıza öz imzası, adı, soyadı ilə yazıldı. Şanla-sanballa yazılan bu imza poeziyamıza silinməz möhür vurdu və daha neçə-neçə əsərlər yazıldıqca da, vurulacaq... Ürəyinizə hərarət, qələminizə bərəkət, Şair.Yaşayın və yaradın!..

**I aparıcı:** Qoy ilham pəriniz sizi müjdələsin yeni-yeni şeirlərlə, pıçıdayaraq qulağınıza misraları, bəndləri. Tanrı sizi və sizin simanızda neçə-neçə türk dili mücahidlərini qorusun.

Biz tarixi yorub gəldik
Keçdik uzun yolları,
Üç qitəni qucaqladı
Türkün açıq qolları.
Hər ocaqda işığımız,
Hər zirvədə qalamız.
Biz allahın balasıyıq,
Tarix bizim balamız.

# SABİR RÜSTƏMXANLI – 70
## (ədəbiyyat siyahısı)

## ƏSƏRLƏRİ

### Latın qrafikası ilə

**Seçilmiş əsərləri** : şeirlər. - Bakı : Şərq-Qərb, 2004. - 344 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.
**Atamın ruhu**. - Bakı : Adiloğlu, 2002. - 321 s. - ("Sabir" Yazarlar ocağnını kitabxanasından).
**Bütövlük həsrəti** : poeziya. - Bakı : Vətən, 1998. - 53 s. - ("Bütöv Azərbaycan" kitabxanası).
**Difai Fədailəri** : roman. - Bakı : Qanun, 2010. - 448 s.
**Əbədi sevda** : şeirlər və poemalar. - Bakı : Təhsil, 2012. - 576 s.
**Göy tanrı** : roman. - Bakı : [s. n.], 2005. - 416 s.
**Ölüm zirvəsi** : roman. - Bakı : Qanun, 2007. - 556 s.
**Ömür kitabı. Göy tanrı**. - Bakı : Şərq-Qərb, 2008. - 632 s. ;
**Sunami** : roman. - Bakı : Qanun, 2011. - 180 s.

### Kiril qrafikası ilə

Bu sənin xalqındır. - Bakı : Şərq-Qərb, 1995. - 680 s.
Gəncə qapısı : şeirlər və poemalar. - Bakı : Yazıçı, 1981. - 162 [1] s.
Qan yaddaşı : şeirlər və poemalar. - Bakı : Yazıçı, 1986. - 264 [1] s.
Sağ ol ana dilim : şeirlər və poemalar. - Bakı : Gənclik, 1983. - 206, [1] s.
Sevgim, sevincim : şeirlər. - Bakı : Gənclik, 1974. - 94, [1] s.
Ömür kitabı. - Bakı : Gənclik, 1989. - 368 s.
Zaman məndən keçir. - Bakı : Azərnəşr, 1995. - 592 s.

**Kitablarda**
**Sabir Rüstəmxanlının müxtəlif müxtəlif əlamətdar hadisələrə və görkəmli şəxsiyyətlərə ünvanladığı şeirlər**

**20 Yanvar xatirəsi** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 196-197.
**Aydın Məmmədovun dəfn günündə** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 217-218.
**Bakı** : Məmməd Araza // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 308-310.
**Bəxtiyar, Əli** ; Ölən qorxumuz ; 20 Yanvar xatirəsi və b. : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 117-135.
**Bir abidə üstündə** : Hüseyn Cavid bayramına // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 126-127.
**Cavad xan** : poema // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 160-177.
**Düşmən əlində** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 210-211.
**Ələsgər ocağında** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 265-266.
**Xəlil Rzaya mərsiyə** // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 218-219.
**Xocalıdan sonra** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 208-210.
**İsa Həbibbəyliyə** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 330.
**M.Ə.Sabirin məzarı üstündə** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 59-60.
**Məktəb yolları** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 68-69.
**Məmməd Aslana** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. -

S. 320.
**Mikayıl Azaflıya** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 286-287.
**Nazim Hikmət yolu** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 139-140.
**Nəbi Xəzriyə** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 216-217.
**Ölümün görüşünə gedən qız** : şeir 20 Yanvara həsr olunur // Seçilmiş əsərləri. - Bakı : "Şərq-Qərb", 2004. - S. 194-196.
**Ruhumuz sərhədsiz olduğu üçün** ; Sağ ol ana dilim : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 345-350.
**Sağ ol, ana dilim** : şeir // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 85-86.
**Salam, Gəncə qapısı** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 48-50.
**Səttar Bəhlulzadə küçəsi** haqqında şəhər sovetinə açıq məktub // Seçilmiş əsərləri. - B. : "Şərq-Qərb", 2004. - S. 43-45.
**Şairlərə borcumuz** : şeir Bəxtiyar Vahabzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : "Şərq-Qərb", 2004. - S. 183-184.
**Şəhriyarın xatirəsinə** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 298-299.
**Təbrizdə bayram axşamı** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 310-311.
**Vətən** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 11-12.
**Vətən mənə əl elədi** : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 262-263.
**Yığıblar üzümüzü** : Çingiz Əlıoğlu və Nüsrət Kəsəmənliyə // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 102-103.
**Yurdun bayrağına** : şeir Əhməd Cavada həsr olunur // Seçilmiş əsərləri. - Bakı : "Şərq-Qərb", 2004. - S. 185.

**Dövri mətbuatda**
**Şeirlər**
**Ad günüm** : Yenə kənd yolunda : şeirlər // Ədəbiyyat qəzeti. - 2011. - 27 may. - **№ 19**. - S. 4.
**Düşmən əlində** : şeir // Savalan. - 2015. - 6-12 noyabr. - № 75/76. - S. 3.
**Şairlərin siyasəti** ; Yad ölkədə ; Ölümsüzlük çağırır və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 16 may. - № 30/31. - S. 16-17.
**Şərt deyil ;** Başa düşməyənlər ayağa düşər ; Düşünmədim heç və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 1 avqust. - № 46. - S. 4-5.
**Türk xalqı "olmaz" deyir** ; Qiyamət ; Ala qarğa və b. : şeirlər // Azərbaycan. - 2011. - № 5. - S. 3-14.

**Məqalələr**

**Bu sualın cavabını verə bilsəydim** : [Azərbaycanın xalq şairi, ictimai-siyasi xadim, millət vəkili Sabir Rüstəmxanlı ilə müsahibə / yazdı S. Hüseynoğlu] // Ədəbiyyat qəzeti. - 2014. - 25 aprel. - **№ 15**. - S. 1;8-9.
**Çörək bahalaşanda söz ucuzlaşır** : [xalq şairi Sabir Rüstəmxanlı ilə müsahibə / söhbətləşdi F. Hüseyn] // Kaspi. - 2014. - 17 may. - № 84. - S. 14.
**Dilin gələcəyi - millətin gələcəyidir** // Ədəbiyyat qəzeti. - 2015. - 26 dekabr. - № 64. - S. 14-15.
**Diri və ölü sözlər** // Ədəbiyyat qəzeti. - 2013. - 30 avqust. - № 32. - S. 7.
**"Xoşbəxtəm ki, müstəqilliyimiz** uğrunda mübarizədə mən də iştirak etmişəm" : Azərbaycan Respublikası - 20 // Mədəniyyət. - 2011. - 21 sentyabr. - № 69. - S. 6.
**Kamil qələm sahibi** : Rəhim Əliyev - 60 // Ədəbiyyat qəzeti. - 2010. - 5 noyabr. - N 43. - S. 4.
**Kəndə qayıtdı,** ancaq heykəl kimi : rus yazıçısı Vasili Şukşin

haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 15 avqust. - № 47. - S. 6-7.
**Milli taleyə qarışan ömür** : şair-dramaturq Hidayət Orucov haqqında // Xalq qəzeti. - 2014. - 9 sentyabr. - № 195. - S. 5.
**Milli tarixşünaslığımızın uğuru** : Misir Mərdanovun "Azərbaycan təhsil tarixi" adlı ikicildlik kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2011. - 16 sentyabr. - № 34. - S. 5.
**Mirzə İbrahimov** : millətin ağıl, mübarizə, iradə rəmzi : Mirzə İbrahimov - 100 // Füyuzat. - 2011. - № 5. - S. 5-9.
**Moskva mətbuatının "Turan incisi"** // Ədəbiyyat qəzeti. - 2015. - 4 aprel. - № 18/19. - S. 1-2.
**Seyran Səxavət haqqında** deyirlər ki... : Seyran Səxavət - 70 // Kaspi. - 2016. - 5 mart. - **№ 40**. - S. 10. – Məqalədə Sabir Rüstəmxanlının Seyran Səxavət haqqında deyimi öz əksini tapıb.
**Sözünlə birgə özün də yaşayacaqsan** : şair Məmməd Aslan haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 6.
**Tarix işığında görünən gələcəyimiz** : Yunus Oğuz - 50 // Ədəbiyyat qəzeti. - 2010. - 23 iyul. - N 29. - S. 7.

## HAQQINDA

### Kitablar

**Ulutürk X. (Rza).** "Ömür kitabı"nı yazan şairə. - Bakı : Mütərcim, 1998. - 112 s.

### Dövri mətbuat

**Abdin Q.** Filarmoniyadan Nargin adasına qədər gəzən xəyal : Sabir Rüstəmxanlı ilə söhbət // Yaddaş. - 2007. - 1 fevral. - S.8,9. .
**Arzumanlı V.** "Ömür kitabı"ndan "Difai fədailəri"nə // Ədəbiyyat qəzeti. - 2011. - 25 fevral. - **№ 7**. - S. 3. - Rüstəmxanlı S. Difai fədailəri. - B. : Qanun, 2010. kitabına rəy.
**Azərbaycan Prezidenti İlham** Əliyev "Xalq yazıçısı" və "Xalq şairi" fəxri adlarına layiq görülmüş bir qrup ədəbiyyat xadimi ilə

görüşmüşdür // Azərbaycan. - 2006. - 29 iyun. - S.1-2.  – Sabir Rüstəmxanlı da həmin görüşdə iştirak etmişdir.
**Babayev M.** Əqidə bütövlüyü : Sabir Rüstəmxanlının Cavad xana həsr etdiyi "Ölüm zirvəsi" romanı haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 28 may. - S. 6.
**Əlişanoğlu T.** "Difai fədailəri" ndən bəhs edən roman : Sabir Rüstəmxanlının "Difai fədailəri" kitabı haqqında  // Kaspi. - 2012. - 18-20 avqust. - **№ 371**. - S. 16,17.
**Əliyev R.** Dünənlə sabahın şairi // Ədəbiyyat qəzeti. - 2013. - 17 may. - **№ 18**. - S. 7.
**Hacı Kənan.** Şairin məğlubiyyəti : Sabir Rüstəmxanlının "Şair və şər" romanı haqqında qeydlər // Ədəbiyyat qəzeti. - 2016. - 9 yanvar. - **№ 1**. - S. 28.
**Hüseynoğlu S.** Nəyi xatırlayırsansa, o sənindir : Sabir Rüstəmxanlının "Difai fədailəri" kitabının təqdimatı // Ədəbiyyat qəzeti. - 2011. - 22 aprel. - **№ 14**. - S. 5.
**Hüseynoğlu S.** "Divani-hikmət"in işığında : [ədəbi məclisin qonağı Sabir Rüstəmxalıdır] // Ədəbiyyat qəzeti. - 2009. - 21 avqust. - N 32. - S. 3.
**Xəlilzadə F.** Ürək Allah ocağıdır : Sabir Rüstəmxanlı - 60 // Azərbaycan. - 2006. - 22 may. - S.7. .
**Yusifli V.** Qəlbimizin və Ruhumuzun vurğunu : Sabir Rüstəmxanlı-65 // Ulduz. - 2011. - **№ 5**. - S. 40-46.
**Yusifli V.** Poeziya - 2011-2012 : fraqmentlər // Azərbaycan. - 2013. - **№ 2**. - S. 158-172.
**Yusifli V.** Düşüncələr romanı : Xalq şairi Sabir Rüstəmxanlı böyük Azərbaycan mütəfəkkiri, Məhəmməd Hadiyə həsr etdiyi "Şair və Şər" romanı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 21 noyabr. - **№ 59**. - S. 24-25.

**Sabir Rüstəmxanlıya ünvanlanmış şeirlər**

**Qabil.** Çaxmağı çək : Sabir Rüstəmxanlıya həsr olunmuş şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 192-194.

**Mehdizadə X.** Dilim - söz ağacım : şeir // Azərbaycan. - 2011. - **№ 6**. - S. 3-9. -
Sabir Rüstəmxanlıya ünvanlanıb

**Sabir Rüstəmxanlının 70 illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait**

Kompyuter yığımı
və dizayn: Aynurə Əliyeva

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz